# "KONSTİTUSİYA VƏ SUVERENLİK İLİ"



*Mingəçevir Gənclər Evində şəhər icra hakimiyyətinin təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr edilən dəyirmi masa keçirilib. Əvvəlcə torpaqlarımızın azad olunması uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Sonra "Konstitusiya və Suverenlik ili"nə həsr olunmuş sənədli film nümayiş etdirilib.*

Tədbirdə şəhər icra hakimiyyətinin məsul əməkdaşlarının, hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrinin rəhbərlərinin, əmək veteranlarının, şəhid ailələri üzvlərinin, qazilərin, ictimaiyyət nümayəndələrinin, təhsil, səhiyyə, idman müəssisələrinin təmsilçiləri iştirak ediblər. Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov bildirib ki, bu il Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30 ili, Vətən müharibəsində qələbəmizin 5-ci ildönümü tamam olur. Bunları nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 28 dekabr 2024-cü il tarixli sərəncamı ilə 2025-ci ili "Konstitusiya və Suverenlik ili" elan etmişdir.

Ulu öndərin rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil edib.

Şəhər rəhbəri qeyd edib ki, Ermənistanın təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Düşmənin işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmişdir. 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış 44 günlük Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Ölkə Prezidentinin 2024-cü il 19 sentyabr tarixli Sərəncamı ilə 20 sentyabr Dövlət Suverenliyi Günü elan edilmişdir.

Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz tarixi zəfərə imza atıb, ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olunub. Artıq Dövlət Bayrağımız bütün torpaqlarımızda dalğalanır. Qarabağ və Şərqi Zəngəzur dirçəldilir, keçmiş məcburi köçkünlərin doğma ata-baba yurdlarında məskunlaşması təmin olunur.

"Konstitusiya və Suverenlik ili" ilə bağlı Tədbirlər Planı"na müvafiq olaraq Mingəçevir Şəhər İcra Hakimiyyətində Təşkilat Komitəsi yaradılmışdır. Tədbirlər Planında nəzərdə tutulan məsələlər, konfranslar, forumlar, dəyirmi masalar, seminarlar, müsabiqələr, müxtəlif mədəni kütləvi tədbirlər, ağacəkmə aksiyaları il ərzində keçiriləcək.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

Respublika .- 2025.- 13 mart (№ 55).- S.5.